**Xanım Yusif qızı AĞAYEVA,** i.ü.f.d
Qərbi Kaspi Universiteti

**Hikmət Fikrət oğlu BALOĞLANOV**
Qərbi Kaspi Universitetinin magistrantı
**E-mail:** mr.balaoglanov@gmail.com
Orcid İD: 0009-0008-2330-4732

# XARİCİ İNVESTİSİYA DİLEMMASI: AZƏRBAYCANDA STARTAPLARIN ÜZLƏŞDİYİ PROBLEMLƏRİN TƏDQİQİ

**Xülasə**

Startap ekosisteminin inkişafı ölkənin iqtisadiyyatına əhəmiyyətli təsir göstərir. Azərbaycan kimi neft-qaz ölkəsində bu sahənin yüksəlişi qeyri-neft sektorunun inkişafına və iqtisadiyyatın şaxələndirilməsinə səbəb olur. Fərqli sahələrdə töhfə verən bu məhsullar zamanla yalnız ölkənin deyil, həm də regionun iqtisadi inkişafında mühüm rol oynayır. Startapların inkişafında əsas diqqət onların investisiya cəlb edərək böyüməsinə yönəlir. İnvestisiyalar, startapların ideya mərhələsindən gəlir gətirən bir quruma çevrilənə qədər bütün proseslərində vacib rol oynayır. Lakin bu inkişafın qarşısında bəzi əngəllər mövcuddur. Riskin yüksək olduğu bir sahə kimi, etibar qazanmaq və maliyyə dəstəyi əldə etmək çətinlik yaradır.

Bu araşdırmada Azərbaycanın startap ekosistemi, inkişafında rast gəlinən problemlər və startapların investisiya prosesində qarşılaşdığı çətinliklər araşdırılmışdır. Yazı zamanı yerli mənbələrin məhdudluğu və ölkə miqyasında aparılan tədqiqatların yetərsizliyi diqqətəlayiq məqam kimi qeyd edilmişdir.

**Açar sözlər**: startap, startap investisiyası, hüquqi və normativ baza, vergi, ekosistem

**UOT:** 33.0, 338.
**JEL:** O31, O32.
**DOI:** https://doi.org/ 10.54414/GSQI6871

**Giriş**

İnnovasiyanın tətbiqi iqtisadiyyatın, sosial və siyasi sahənin, həmçinin təhsilin inkişafında mühim rol oynayır. Son 10 ildə Azərbaycanda da innovasiya, startap və rəqəmsallaşma kimi terminlərin istifadəsinin yayıldığını müşahidə etmək mümkündür.

Startap dedikdə unikal məhsul və ya xidmət hazırlamaq, onu bazara çıxarmaq və müştərilər üçün əvəzolunmaz gənc şirkət olmaq başa düşülür [1]. Bu şirkətlər ya var olan sistemlərin daha innovativ versiyalarını, ya da tamamilə yeni idealar yaradaraq fəaliyyət göstərirlər. Həmçinin startap yaradıcılarının özlərinin də gənc və yeni qurulmuş komandalardan ibarət olmaları, onları ənənəvi biznesdən əsas fərqləndirən cəhətlərdən biridir. Startap yaradıcılarının ortalama yaşı araşdırmalara görə 35-40 yaş arasında olur [2].

Qeyd edildiyi kimi, startaplar ölkələrin iqtisadi inkişaflarına da təsir edirlər. Hansı ki, sahibkarların sayının artmasında (bu da bilavasitə olaraq işsizliyin səviyyəsinə təsir edir), gənc bizneslərin yaranmasında, ölkəyə investisiya cəlbində qatqıları olur. Son zamanlar Azərbaycanda məhz bu sahənin inkişafı üzrə təhsilin fərqli pillələrindən etibarən xidmətlər göstərilməyə başlanılıb.

Buraya universitetlərdə sahibkarlıq proqramlarının tədrisi [3], dövlət tərəfindən yaradılan qrant və dəstək proqramları, özəl şirkətlər tərəfindən yaradılan inkubasiya və akselerasiya mərkəzləri daxildir. Ümumiləşdirdikdə, ölkəmizdə bu istiqamətdə inkişaf üçün atılan addımlarda həm dövlətin, həm özəl sektorların, həmçinin də yerli əhalinin marağı mövcuddur. Bu araşdırma yazısında əsas diqqət Azərbaycanın dünya səviyyəsində “unicorn” startaplara sahib olmamasına yönəlib. Unicorn startaplar, dövriyələri ilə iqtisadiyyata

töhfə verməklə yanaşı, ölkənin qlobal tanınmasına və investisiya cəlbinə şərait yaradır.

Əsas sual isə illərlə innovasiya və rəqəmsallaşma strategiyası yürüdülsə də, dünya səviyyəli startapların olmamasıdır. Problemin səbəbləri dövlət, şirkətlər və startapların özləri ilə bağlıdır. Yazı zamanı yerli mentor və ekspertlərin rəyləri, startapçılarla müzakirələrdən əldə edilən məlumatlar təhlil edilmişdir. İlk iki hissədə ekosistem və biznes inkişafı dəyərləndirilmiş, digər hissələrdə isə problemlər və inkişaf üçün addımlar araşdırılmışdır.

**Azərbaycandakı startap ekosistemi və innovasiya mühiti:**

**Azərbaycan startap ekosisteminin yaranması**

Azərbaycanda startap ekosistemi təxminən 14 illik bir inkişaf dövründən keçir. 2012-ci ildə keçirilən "Startup Azerbaijan" tədbiri ilə bu sahə canlanmağa başladı. Dövlət bu illər ərzində ekosistemin inkişafı üçün addımlar atmağa, layihələr yaratmağa və büdcə ayırmağa başladı. 2013-cü ildə prezidentin fərmanı ilə "Pirallahı Yüksək Texnologiyalar Parkı" yaradıldı [4], eyni zamanda 2015-ci ildən "AppLab" inkubasiya proqramı "Bakcell" və "Wayra UK"-nin əməkdaşlığı ilə ölkəyə gətirildi. 2009-cu ildən fəaliyyət göstərən "Barama innovasiya və sahibkarlıq mərkəzi" də bu sahədə gənclərin təhsilini artırmağa yönəlmiş layihələr həyata keçirir, o cümlədən "Startup school" kimi proqramlar təşkil edir.

**Azərbaycanda keçmişdə və indi fəaliyyət göstərən innovasiya mərkəzləri**

Azərbaycanda innovasiya ekosistemi həm dövlət qurumları, həm özəl şirkətlər tərəfindən idarə edilir. Hazırda həm fəaliyyətdə olan, həmçinin də fəaliyyəti dayansa da ekosistem üçün öz töhvələrini vermiş fərqli layihələrin siyahısı aşağıda qeyd edilmişdir:

**1. "INNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi**

2018-ci ildə Elektron Hökümət portalı tərəfindən yaradılmış və hələ də fəaliyyətini çoxda aktiv şəkildə olmasada davam etdirməkdədir. Hazırda bu mərkəz startaplar üçün həm inkubasiya, həm akselerasiya xidmətlərini təklif edir. [5]

**2. "Enterprise Azerbaijan"**

Azərbaycan Respublikası Prezidentinin 19 sentyabr 2018-ci il tarixli "Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamına əsasən yaradılmışdır. [6]

**3. "İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi"**

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 11 oktyabr 2021 tarixli Fərmanına əsaslanaraq, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin təşkilatı olaraq yaradılmışdır.

Məqsədləri arasında nüvə elmi və texnologiyalarının sınaq təcrübələrinin həyata keçirilməsi, innovasiya yönümlü elmi-tədqiqat və startap layihələrinə dəstək verilməsi, müasir texnologiyaların əldə olunmasında kömək göstərilməsi, İKT sahəsində təhsil və karyera imkanlarının təmin edilməsi, rəqəmsal hökumət və cəmiyyətin formalaşdırılması və təşkil edilməsi var. Hazırda həm Koreya ilə birlikdə KOİCA layihəsi, həmçinin Technest kimi təqaüd proqramları mövcud olmuşdur. [7]

**4. "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA)"**

2017-ci ildən fəaliyyət göstərən KOBİA, kiçik və orta biznesin inkişafına dəstək verən və dövlət orqanlarının xidmətlərini tənzimləyən publik hüquqi şəxsdir. İqtisadiyyat Nazirliyinin tabeliyində çalışan KOBİA, startaplara şəhadətnamə təqdim edir.

Bu şəhadətnamə ilə innovasiya fəaliyyətindən əldə olunan gəlirlər üç il müddətinə mənfəət və gəlir vergisindən azad edilir. Hazırda 130-a qədər mikro və kiçik sahibkar bu imkandan faydalanıb. [8]

**5. "SABAH.HUB" İnnovasiya Mərkəzi**

SABAH.HUB, yeni startapların yaradılmasını və inkişafını dəstəkləyən innovasiya mərkəzidir. Fəaliyyət sahələri arasında akademiya, inkubasiya və akselerasiya var. Mərkəz, yerli startapların yatırım almasını və investorlarla əlaqələrini dəstəkləyir və "IE Business School" ilə əməkdaşlıq edir. Akademiya, tələbələrin karyera imkanlarını artırmaq üçün beynəlxalq professorları dəvət edərək tədris proqramları təşkil edir. Akselerasiya və inkubasiya proqramları ilə hər il yüzlərlə sahibkar yetişdirir [9]. Mərkəz, eyni zamanda, iki ildir ki, BakuID (Baku Investment Day) investisiya tədbirini keçirilir və bu müddət ərzində 5000-dən artıq iştirakçını cəlb edib, 300-dən çox xarici investoru Azərbaycana dəvət etmişdir [10].

**6. "Pasha Holding Innovation Stream"**

Paşa Holdinqin tərkibində fəaliyyət göstərən "Innovation stream" məhz digərləri kimi ölkədə startapların və innovasiyanın inkişafına diqqət yetirir və artıq bir neçə ildir ki, digər geniş miqyaslı innovasiya tədbiri olan "INMERGE SUMMIT"i həyata keçirilir. [11]

**Azərbaycanda startapların maliyyə cəhətdən problemləri**

**Startapların maliyyələşmə imkanları**

Startapların maliyyələşməsi onların böyüməsi üçün əsas faktorlardan biridir. Lakin yeni şirkətlərin uğursuz olma səbəblərindən ən yayğın olanı məhz maliyyə azlığıdır [13].

Çünki onlar investor tərəfindən hər zaman yüksək risk kimi qiymətləndirilir. İnvestorları əldə etmələri üçün konseptlərini sübut etməli, müştəri bazası yığmalıdırlar. Lakin bunlar üçün də onlara maliyyə lazımlı faktordur. Belə olduqda, startaplar və investorlar arasında güvən bağının yaranması uzun müddət alır. Buna görə də onlar ya özləri özlərini maliyyələşdirir, ya da fərqli yollarla kənardan maliyyə cəlb etməyə çalışırlar:

1. Qrantlar:

Kapital cəlb etmənin ən yaxşı yollarından biri də qrantlardır. İnnovasiya sahəsində xüsusilə kiçik işlərə qrant təklif edən bir çox təşkilat var. Buraya dövlət təşkilatları, özəl şirkətlərin keçirdikləri qrantlı müsabiqələr, universitetlər tərəfindən təşkil edirən yarışmalar zamanı ayrılan fondlar daxil olur. Bu növ qrantlara ölkəmizdə daha çox təhsil, kimya və tibb sektorunda yaradılan startaplar müraciət edirlər.

2. Mələk İnvestorlar

Mələk investorlar əsasən risk almağı sevən, həmçinin yüksək gəlirli olub investor kimi düşünən insanlar toplumu hesab edilir. Dünyada çox yayğın olan bu yatırım növü artıq Azərbaycanda da inkişaf edir. Bunlardan biri "Technovate-Sabah angel investor" klubudur, hansı ki, yaxın zamanda məhz "Angel Investor School" təsis edərək investor olmaq istəyənlər üçün təhsil imkanları yaratmışdırlar [14]. Bundan başqa" LTC Angels Network" [15], "Divida Angel Club" [16], "Khazar ventures"[17] kimi klublar vardır ki, ətrafında onlarla mələk investor toplamış, fərqli portfolioya malik startaplara yatırımlar edirlər.

3. Vençur Kapital (VC-Venture Capital)

Azərbaycanda, təəssüf ki, geniş yayılmasa da, ən aktiv fəaliyyətləri olan yatırım növlərindən biri məhz vençur fondlardır. Hazırda 2023-cü ildə İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İDDA), "PAŞA Holdinq" Şirkətlər Qrupu və fərdi investorların iştirakı ilə nizamnamə kapitalı 11,3 milyon manat olan "Caucasus Venture" fondu yaradılmış və fəaliyyət göstərir, planında Azərbaycan, Gürcüstan, Türkiyə, Orta Asiya və Şərqi Avropadakı startaplara 5 il ərzində yatırım etmək mövcuddur [18]. İDDA-nın rəhbəri İnara Vəliyevanın müsahibəsinə dayanaraq verdiyi statistikaya əsasən: "Fondun fəaliyyətə başladığı dövrdən bu yana, yəni bir il ərzində 15 startapa 1 milyon ABŞ dollardan çox (təqribən 1.3 milyon) maliyyə dəstəyi göstərilib"[19].

2016-cı ildə qəbul edilən Strateji Yol Xəritəsində startap və sahibkarlıqla bağlı hədəflər qoyulmuşdur. Buraya yeni biznes mərkəzlərinin və inkubatorların yaradılması, startaplara maliyyə dəstəyi və investisiyaların cəlbi daxildir. Konkret olaraq:

- 2020-ci ilədək 3–5 model müəssisənin yaradılması,
- 2020-ci ilədək ən azı 5 yeni biznes inkubatorunun yaradılması,
- İl ərzində ən azı 25 startap layihəsinin başlanması hədəflənmişdir.

Lakin bu göstəricilərin nə dərəcədə reallaşdığına dair dəqiq statistika əlçatan deyil. Yeni qurumlar və fondlar bu hədəflərin tamamlanmasına müəyyən dərəcədə töhfə vermişdir.

Lakin yuxarı alt-başlıqda qeyd edilənlərin heç biri hələ də tam olaraq, ***"Nəyə görə on ildən artıqdıq, sahibkarlıq anlayışının inkişaf etdiyi və startapların formalaşdığı Azərbaycanda, "unicorn" adlandırdığımız şirkətin qlobal bazarda olmadığı"*** sualını cavablandırmır.

Bunun üçün də həm bu sahədə çalışan ekspert və mentorlardan, həmçinin də fərqli startaplar etmiş insanlara bir neçə suallar soruşulmuş və ümumi cavabları ilə birlikdə qeyd edilmişdir:

Vergi və hüquqi boşluqlar, həmçinin maliyyələşmə problemləri

Fərqli və qlobal bazara uyğun ideyaların azlığı, lokal bazara fokuslanmaq, sürətli gəlir əldə etmək istədikləri üçün inkişafı düzgün strategiyada aparmamaq, həmçinin investor azlığı, düzgün startapçı azlığı, komanda fərdlərində problemlər, güvən boşluqları.

Güvən, riskə gedən investorların olmaması, ekosistemin hələ də inkişaf mərhələsində olması, investorlarla şərtlərdə anlaşmazlıqlar.

Azərbaycan hüquqi sisteminin investorlara uyğun olmaması, güvən problemləri, investorun həm məhsula, həm komandaya güvənsizliyi. Burada həm bazarı tam tanımamaqları, həm ümumi mədəni məqamların təsiri mövcuddur.

Birləşmiş Krallığın hüquqi sistemi investorlar üçün daha müdafiə edən xarakterdədir, həmçinin xüsusi texnoparkların olması, hansı ki, burada startaplar üçün güzəştli və xüsusi şərtlər mövcuddur, vergidən azadolmalar, startapların dəyərləndirilməsində xüsusi diqqət verilməsi, bazara güvənin olması.

**Nəticə**

Azərbaycan artıq neft və qaz ölkəsi olmaqla yanaşı, startap və sahibkarlıq sahələrinə də diqqət ayıraraq inkişaf edir. Lakin bu proses kifayət qədər sürətli həyata keçirilmir. Texnologiya və innovasiyanın qlobal irəliləyişini nəzərə alaraq yeniliklərə uyğunlaşmaq vacibdir. Ekosistemin ümumi vəziyyəti və əsas problemləri vurğulanmışdır. İnkişaf üçün yalnız dövlət dəstəyinə güvənmək deyil, özəl qurumlar və fərdlərin də aktiv iştirak etməsi vacibdir.

1. *Vergi və Hüquqi Güzəştlər*

Sahibkarlığı asanlaşdırmaq və startapları sərmayələndirmək üçün vergi güzəştləri vacibdir. Startapçıları həvəsləndirmək, onların daha çox idealar ilə məhsul yaratmasına təşviq etmək lazımdır. Banklar və qurumlar tərəfindən daha yumşaq şərtlərlə ödənişlər ayrılmalıdır. Əlavə olaraq isə 3 il vergidən azad olmaq, startaplar üçün sərf etmir. Çünki, MVP yaradılması, ilkin xərclərin qarşılanması və gəlir əldə edilməsi 3 ildən daha çox vaxt çəkir. Ona görə də bu güzəşt heç bir fayda vermir. Bununla yanaşı Azərbaycanla eyni formatda, lakin daha uğurlu sahibkarlıq tarixçəsi olan ölkələrdən nümunələr götürərək hüquqi bazanı inkişaf etdirmək lazımdır.

2. *Maliyyələşmə mənbələri*

Dövlət vençur fondları ilə bağlı mövqeyini gözdən keçirməlidir. Xarici və yerli sərmayələrin qorunması üçün güclü təminatlar təmin edilməli və prosedurlar aydın olmalıdır. Bu həm ölkəyə xarici investorların cəlbini asanlaşdıra, həm də yerli investorların da ayrıca fondlar açmasına köməklik edə bilər.

3. *Resurslarda artım*

Dövlət büdcəsi tələbələrin və təhsilin inkişafına daha çox ayrılaraq, insan kapitalına diqqət verilməlidir. Startapların özəl şəkildə maliyyələşməsi onların inkişafını daha çox sürətləndirir.

Daha yüksək texnologiyaların gətirilməsi, texnoparkların, startap mərkəzlərinin yaradılması vacibdir. STEM mərkəzlərinnin sayının çoxalması, robotexnika, kosmonavtika kimi sahələrdə xüsusi savadlı uşaqlar yetişdirilməlidir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Forbes. (n.d.). *What is a Startup?*. Retrieved from https://www.forbes.com/advisor/business/what-is-a-startup/
2. Singh, K. (n.d.). *Exploring the Average Age of Successful Startup Founders: Insights*. LinkedIn. Retrieved from https://www.linkedin.com/pulse/exploring-average-age-successful-startup-founders-insights-singh/
3. SABAH HUB. (n.d.). *SABAH Academy*. Retrieved from https://www.sabahhub.com/academy
4. Pirallahı Rayon İcra Hakimiyyəti. (n.d.). *Pirallahı rayonunda startap layihələrinin inkişafı*. Retrieved from http://www.pirallahi-ih.gov.az/az/news/111.html
5. InnoLand. (n.d.). *InnoLand Innovation Center*. Retrieved from https://innoland.az/
6. Enterprise Azerbaijan. (n.d.). *Enterprise Azerbaijan Portal*. Retrieved from https://enterpriseazerbaijan.gov.az/
7. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA). (n.d.). *Startap Şəhadətnaməsi*. Retrieved from https://www.smb.gov.az/az/nav/startap-sehadetnamesi
8. Azərbaycan İnnovasiya Mərkəzi. (n.d.). *Mərkəz haqqında məlumat*. Retrieved from http://aim.gov.az/az/haqqimizda/merkez-haqqimizda
9. SABAH HUB. (n.d.). *SABAH HUB Portalı*. Retrieved from https://www.sabah-hub.com/az/
10. Baku ID. (n.d.). *Baku Innovation Days*. Retrieved from https://www.bakuid.com/az
11. InMerge. (n.d.). *InMerge Platform*. Retrieved from https://www.inmerge.az/
12. World Intellectual Property Organization (WIPO). (2024). *Global Innovation Index 2024*.

Retrieved from https://www.wipo.int/web-publications/global-innovation-index-2024/en/

13. FasterCapital. (n.d.). *Startups that Failed Due to Lack of Funding*. Retrieved from https://fastercapital.com/topics/startups-that-have-failed-due-to-lack-of-funding.html
14. Angel Investor Club Azerbaijan. (n.d.). *Angel Investor Platform*. Retrieved from https://www.angelinvestor.az/
15. Lotfi Zadeh Technology Center. (n.d.). *Angels Network*. Retrieved from https://startup.lotfizadeh.az/angels-network
16. Divida Angel Club. (n.d.). *Angel Club Platform*. Retrieved from https://htpok1.wixsite.com/divida-angel-club
17. Khazar Ventures. (n.d.). *Venture Capital Investments*. Retrieved from https://vc.mk/#Khazar-Ventures
18. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İDDA). (n.d.). *Azərbaycanın ilk vençur kapital fondu "Caucasus Ventures" yaradılıb*. Retrieved from https://www.idda.az/az/media/press/azerbaycanin-ilk-vencur-kapital-fondu-caucasus-ventures-yaradilib
19. Report.az. (n.d.). *İnara Vəliyeva: "Startapların investisiyaya əlçatanlığı üçün yeni maliyyələşmə mexanizmləri düşünürük"*. Retrieved from https://report.az/ikt/inare-veliyeva-startaplarin-investisiyaya-elcatanligi-ucun-yeni-maliyyelesme-mexanizleri-dusunuruk/
20. Caucasus Ventures. (n.d.). *Portfolio of Investments*. Retrieved from https://caucasus.vc/portfolio/

**Ханым Юсиф гызы АГАЕВА, к.э.н.**
Западно-Каспийский университет

**Хикмет Фикрет оглы БАЛОГЛАНОВ**
Магистрант Западно-Каспийского университета
E-mail: mr.balaoglanov@gmail.com
ORCID ID: 0009-0008-2330-4732

# ДИЛЕММА ИНОСТРАННЫХ ИНВЕСТИЦИЙ: ИССЛЕДОВАНИЕ ПРОБЛЕМ, С КОТОРЫМИ СТАЛКИВАЮТСЯ СТАРТАПЫ В АЗЕРБАЙДЖАНЕ

## Резюме

Развитие экосистемы стартапов оказывает значительное влияние на экономику страны. В нефтегазовой стране, такой как Азербайджан, рост этого сектора способствует развитию ненефтяного сектора и диверсификации экономики. Продукты, вносящие вклад в различные сферы, со временем играют важную роль не только в экономическом развитии страны, но и региона. Основное внимание в развитии стартапов уделяется их росту за счёт привлечения инвестиций. Инвестиции играют ключевую роль на всех этапах — от стадии идеи до превращения стартапа в доходное предприятие. Однако этому росту препятствуют определённые барьеры. Как высокорискованная сфера, стартапы сталкиваются с трудностями в завоевании доверия и получении финансовой поддержки.

В данном исследовании рассматриваются экосистема стартапов Азербайджана, проблемы, возникающие в процессе её развития, а также трудности, с которыми сталкиваются стартапы при привлечении инвестиций. Отмечается также ограниченность локальных источников и недостаточность исследований, проводимых в масштабах страны, что является важным аспектом.

**Ключевые слова:** стартап, инвестиции в стартапы, правовая и нормативная база, налогообложение, экосистема

**Khanim Yusif AGAYEVA, PhD in Economics**
Western Caspian University

**Hikmat Fikrat BALOGHLANOV**
Master's Student, Western Caspian University
E-mail: mr.balaoglanov@gmail.com
ORCID ID: 0009-0008-2330-4732

## THE FOREIGN INVESTMENT DILEMMA: A STUDY OF THE CHALLENGES FACED BY STARTUPS IN AZERBAIJAN

**Abstract**

The development of the startup ecosystem has a significant impact on a country's economy. In an oil- and gas-dependent country like Azerbaijan, the growth of this sector contributes to the development of the non-oil sector and the diversification of the economy. Products that make contributions in various fields eventually play an important role not only in the country's but also in the region's economic development. The main focus in the development of startups is on their growth through attracting investment. Investments play a crucial role in all stages, from the idea phase to becoming a revenue-generating entity. However, there are certain barriers to this growth. As a high-risk field, gaining trust and obtaining financial support is challenging.

This study examines the startup ecosystem in Azerbaijan, the problems encountered in its development, and the difficulties startups face in the investment process. A noteworthy point identified in the research is the limited availability of local sources and the insufficiency of nationwide studies on this subject.

**Keywords:** startup, startup investment, legal and regulatory framework, taxation, ecosystem